# Şuşa Forumunda "Yaşıl dünya naminə həmrəylik - COP29" adlı təqdimat keçirilib




"Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda təşkil olunan II Şuşa Qlobal Media Forumu çərçivəsində iyulun 22-də "Yaşıl dünya naminə həmrəylik - COP29" adlı təqdimat keçirilib.

AZƏRTAC xəbər verir ki, təqdimatı Azərbaycan Respublikası energetika nazirinin müavini, COP29-un baş icraçı direktoru Elnur Soltanov edib.

Təqdimatda Elnur Soltanov Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə əlaqədar həyata keçirilən tədbirlər və hazırlıq işləri, ölkə səviyyəsində iqlim dəyişikliyinin təsirləri ilə aparılan mübarizə, işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma prosesində sərgilənən dayanıqlı yanaşma barədə məlumat verib, iştirakçıların suallarını cavablandırıb.

Azərbaycan .-2024.- 23 iyul (№ 153).- S.17.